# Görkəmli tarixçi alim və pedaqoq



Yazın gəlişini səbirsizliklə gözləyən Atalla dünyada ilahi məhəbbətlə sevdiyi ömür-gün yoldaşı Xumra xanımla birlikdə illərdən bəri arzusunda olduqları xoş bir duyğunun — ata, ana olmaq istəyinin çin olacağı günü intizarla gözləyirdilər. 1940-cı il aprelin 7-də Namik dünyaya gəldi.

Valideynlərinin sevinci yerə-göyə sığmırdı. Quş qanadlı illər sürətlə ötüb keçdi. Namik məktəbə getdiyi ilk gün keçirdiyi sevincin fərəhli anlarını, yaddaqalan müxtəlif əlamətdar hadisələri özündə əks etdirən xoş xatirələrin ovqatını bu gün də yaşayır. İlk komsomol təşkilatının katibi seçilməsi, Azərbaycan LKGİ Mərkəzi Komitəsinin büro üzvü, həmçinin Bakı Şəhər və Rayon komitələrinin plenum üzvü və Azərbaycan komsomolunun XXV və XXVI qurultaylarının nümayəndəsi seçildiyi anlar...

1960-cı ildə müvəffəqiyyətlə imtahan verib M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun kimya texnologiyası fakültəsinə qəbul olundu.

Ali məktəbdə oxuduğu illərdə Namik Axundovun ictimai-siyasi işlərdə yaxından iştirakı aparıcı rəhbərlərin, xüsusən də fənn müəllimlərinin diqqətindən yayınmadı. Ömrünün ən gənc çağlarında —22 yaşında Azərbaycan Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsində təlimatçı vəzifəsinə irəli çəkildi. Az keçmiş bölmə müdiri, 1967-ci ildə isə əvvəlcə sədrin müavini, sonra sədri seçildi. 1969-cu ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin böyük referenti, 1982-ci ildən Azərbaycan KP MK-nın beynəlxalq əlaqələr şöbəsində müdir müavini, 1984-cü ildə həmin şöbənin müdiri vəzifəsinə irəli çəkildi. Respublikanın ictimai-siyasi və mədəni həyatında yaxından iştirak etməsini nəzərə alaraq, tapşırılan işin öhdəsindən layiqincə gəldiyinə görə Namik müəllimi dəfələrlə SSRİ-nin Xarici Ölkələrlə Dostluq Cəmiyyətinin, Asiya və Afrika ölkələri ilə Sovet Həmrəyliyi Komitəsinin Rəyasət Heyətinə üzv seçilmişdir. 1985-ci ildə Azərbaycan Respublikası Ali Sovetinə seçkilər zamanı deputat seçilən və parlamentin xarici işlər üzrə komissiya sədrinin müavini kimi məsul bir vəzifənin öhdəsindən layiqincə gələn Namik müəllim Azərbaycanın haqq işini həmişə yüksək tribunalardan bəyan edirdi. Onun yüksək təşkilatçılıq, diplomatçılıq keyfiyyətləri bir an belə nəzərdiqqətdən yayınmırdı. 1992-1996-cı illərdə Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq münasibətlər şöbəsinin müdiri vəzifəsinə irəli çəkilən Namik Axundova həm də irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üzrə yaradılan qərargaha rəhbərlik etmək işi tapşırılır...1997-ci ildən əvvəlcə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda dosent və professor, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər və xarici siyasət kafedrasında professor kimi çalışan Namik Axundov 2004-cü ildən 2013-cü ilin axırlarınadək magistratura üzrə dekan olmuşdur.

Beynəlxalq münasibətlər sahəsində mütəxəssis kimi təkmilləşməsində bir çox amillər mühüm rol oynamışdır. N.Axundov Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasının "Beynəlxalq münasibətlər" ixtisası üzrə şöbəni 1982-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, həmin akademiyada 1987-ci ildə tarix ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmiş, nəhayət 1991-ci ildə Moskvada Rusiya İdarəçilik Akademiyasında "Müasir dünya siyasətində xalq demokratiyası" mövzusunda doktorluq işini uğurla başa çatdırmışdı. Xarici Dillər İnstitutunun alman dili fakültəsini bitirməsi mühüm rol oynamışdır.

Professor Namik Axundov Azərbaycanda tanınan, sevilən, siyasətlə məşğul olanların hörmət bəslədiyi, tələbələrinin məsləhət yeri, alimlərdən, müəllimlərdən ən çox seviləni, təqdir olunanıdır. Əlli ildən artıq ictimai-siyasi fəaliyyətlə məşğul olan, respublikada və onun sərhədlərindən uzaqlarda tanınan professor N.Axundovun həyat və fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir. Onun Heydər Əliyev məktəbinin mübariz yetirmələrindən olduğunu xatırlatmamaq olmaz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçki kampaniyası zamanı tutduğu prinsipial mövqe də unudulmur.

Pedaqoji işin təşkilində Namik müəllimin böyük zəhməti vardır. O, alim kimi aktuallığı hər an diqqətdə saxlayır, bir siyasətçi kimi beynəlxalq məsələlərə dair özündə ehtiva etdiyi siyasi icmalçılıq məziyyətləri, xarici siyasət sahəsində əldə olunan müvəffəqiyyətlərə, görüləcək işlərin mərhələliyinə diqqət yetirilməsini zəruri sayır...

Namik müəllim yüksək dövlət təltifləri ilə fərqlənən yaradıcı ziyalılarımızdandır. "Xalqlar Dostluğu" ordeni, "Əməkdə fərqlənməyə görə" medalı, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanına layiq görülməsi əməyinə verilən qiymətin bariz nümunəsidir. Onun Amerika Birləşmiş Ştatlarının Yeni Orlean və Batenriya şəhərlərinin fəxri vətəndaşı seçilməsi, İtaliyanın Neapol və Almaniyanın Lüdviqsxaven şəhərlərinin gümüş medalları ilə təltif olunması, Türkiyə, Almaniya, Fransa parlamentlərinin gümüş medallarına layiq görülməsi azərbaycanlı ziyalısının həm dövlətçilik və idarəçilik sahəsində, eyni zamanda xarici dövlətlərlə diplomatik münasibətlərin yüksək səviyyədə qurulmasında xidmətlərinin qiymətləndirilməsidir.

Namik müəllimin yorulmaq bilməyən geniş diapazona malik, hərtərəfli bir elm adamı olduğu Azərbaycan cəmiyyətində qəbul olunur. Onun müəllifi olduğu əsərləri, elmi məqalələri, üç kitabdan ibarət olan "Dünya dövlətlərinin əsas coğrafi, sosial və siyasi göstəriciləri" dərsliklərində Avrasiya, Amerika dövlətləri, Avstraliya, Okeaniya dövlətlərinin əsas göstəriciləri barədə geniş məlumatları özündə əks etdirir. Bu nəşrlər Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin ən yeni tarixi kafedrasının professoru, tarix elmləri doktoru M.C.Qasımovun, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Metodik Şurasının sabiq sədri, professor, əməkdar elm xadimi Seyfəddin Qəndilovun sədrliyi ilə tələbələr üçün dərs vəsaiti kimi nəşr olunmuşdur. Bu dərs vəsaitləri dövlət məmurları, parlament üzvləri, biznesmenlərlə yanaşı, beynəlxalq münasibətlər, tarix, iqtisadiyyat, coğrafiya, jurnalistika fakültələrində oxuyan bakalavr və magistrlər, həmçinin orta və ali məktəblərin müvafiq fənlərini tədris edən müəllimlər üçün dərs vəsaiti kimi nəzərdə tutulmuşdur.

Namik Axundovun bir alim kimi qələmindən çıxan adi bir elmi yazının da mənəvi dəyəri oxucusu tərəfindən yüksək qiymətləndirilir. Onun çoxsaylı elmi məqalələri, dərslikləri, araşdırma və monoqrafiyaları xalqımıza əvəzsiz töhfələrdir.

**Ziyəddin MƏHƏRRƏMOV,**
**Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının dosenti.**